# İSLAM VƏTƏNİNİ SEVMƏK İMANDANDIR

bu cür vətəni zay etdilər

بسم الله الرحمن الرحيم

Müəllif
Şeyx Səid Raslan

Tərcümə
Mansur Cəlil

Həmd ancaq Allahadır, Ona həmd edir, Ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa haqq ilah (məbud) yoxdur, O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**“Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün”** (Ali-İmran, 102).

**“Ey insanlar! Sizi tək bir şəxsdən** (Adəmdən) **xəlq edən, ondan da zövcəsini** (Həvvanı) **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun.** (Adı ilə) **bir-birinizdən** (cürbəcür şeylər) **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir”** (ən-Nisa, 1).

**“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** (Əgər belə etsəniz) **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə** (Cənnətə) **nail olar”** (əl-Əhzab, 70-71).

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhəmmədin ﷺ yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl bidətdir, hər bir bidət isə zəlalətdir. Zəlalət isə oddadır.

Uca Allah vətəni və vətənin qəlblərdəki yerini Öz Kitabında xatırladaraq belə buyurur: **“Əgər onlara: “Özünüzü öldürün, yaxud yurdlarınızdan çıxın!”– deyə əmr etsəydik, içərilərindən az bir qismi istisna olmaqla, bunu yerinə yetirməzdilər. Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu, onlar üçün daha xeyirli və sabitlik baxımından daha güclü olardı”** (ən-Nisə, 66).

Uca Allah nəfsi (canı) öldürməyi və yaşanılan yerdən qovulmağı eyni tutmuşdur. Həmçinin, Uca Allah bildirmişdir ki, əgər Allah bəndələrinə məşəqqətli və nəfsə ağır olan əmrlər etsəydi, nəsi (canı) öldürmək və yaşanılan yerdən çıxmaq əmri edər, lakin bunu onlardan az bir qism yerinə yetirərdi. Sonra Uca Allah buyurur: **“...Onlar**

**dedilər: "Niyə Allah yolunda döyüşməyək ki, biz yurdumuzdan çıxarıldıq, övladlarımızdan ayrıldıq?!"** (əl-Bəqərə, 246). Daha sonra Uca Allah Bəni İsraildən rəy və söz əhlinin cəm olub cihad haqqında hökm etdiklərini xəbər verir. Onlar aralarındakı ixtilafa son qoymaq üçün tam itaətin hasil olması və heç bir sözə yer qalmamaqdan ötrü peyğəmbərlərindən bir rəhbər təyin etməsini tələb etdilər. Onların peyğəmbəri bu tələblərin əməlsiz bir söz olmasından qorxdu. Belə olduqda onlar peyğəmbərlərinə əzmli olaraq tam tabeçilik edəcəklərini bildirdilər. Ölüm onlar üçün təyin edilmişdi və bu da onların öz vətənlərinə qayıtmaq istəmələrinə səbəb idi.

Uca Allah vətəni sahiblərinə - orda yaşan camaata nisbət etmişdir: **"Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur..."** (əl-Həşr, 8); **"Onlar ancaq "Rəbbimiz Allahdır"– dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar"** (əl-Həcc, 40). Əgər insanlar öz ruzilərindən qane olsalar, vətənlərindən də razı olarlar. Heç bir bəndə öz ruzisindən şikayət etməz, çünki vətəndən qane olmaq ruzidən qane olmaqdan daha üstündür. Sən səhra ərəbini görürsən ki, o yaşıllığı necə də sevir, lakin yenə də öz səhra, kasıbçılıq, quru daşlar olan vətəni üçün darıxır. Həmçinin, susuz, abad olmayan bir yerdə yaşayan öz ölkəsindən daha yaxşı, daha mənzərəli, daha çox yaşıllıq olan yerə gedərsə, ordan istifadə edər, lakin yenə öz qərar tutduğu evi – vətəni üçün darıxar. Yaxşı insan, aslan meşə üçün darıxdığı kimi öz vətəni üçün darıxar. Bilal ﷺ müsəlmanları öz diyarlarından qovan insanlar üçün bəd dua etmiş və necə ki onlar müsəlmanları öz yurd-yuvalarından qovmuşdular, eləcə də Allah onları öz rəhmətindən qovsun. Allah Elçisi ﷺ bunu eşidərkən, onu inkar etməmiş və dua etmişdir ki, Allah Mədinəni vətənləri kimi və daha artıq sevdirsin.

Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ Mədinəyə gəldikdə Əbu Bəkr və Bilal xəstələnmişdilər. Əbu Bəkrin qızdırması qalxanda deyərdi:

*Hər kəs səhər oyanar ailəsində yuxudan,*
*Ölüm yaxın olar ona çəkməsinin bağından.*

Bilalın da hər qızdırması azalanda səsini qaldırıb deyərdi:

*Nə olaydı biləydim bir gün qalacağammı?*
*Vadidə ətrafımda izxir[1], cəlil[2] olacaqmı?*
*Məcənnənin[3] sularına bir gün yetişəcəyəmmi?*
*Şama, Təfil[4] dağları gözümə görünəcəklərmi?*

Peyğəmbər ﷺ dedi: "Allahım, bizi torpağımızdan çıxardıb vəba xəstəliyi olan torpağa qovan Şeybə ibn Rəbiəyə, Utbə ibn Rəbiəyə və Umeyyə ibn Xələfə lənət[5] et!" Sonra Peyğəmbər ﷺ (yenə dua edib) dedi: "Allahım, Məkkəni bizə sevdirdiyin kimi, yaxud bundan artıq bir sevgiylə Mədinəni də bizə sevdir...".[6]

## Allah Elçisinin ﷺ vətənini tərk etmək istəməsi

Allah Elçisi ﷺ peyğəmbərliyin başlanğıcında olan hadisələri Varaqa ibn Novfələ danışdıqda, o demişdir: "Kaş dəvət edəcəyin vaxt mən gənc olaydım! Kaş qövmün səni (yurdundan) qovacağı zaman sağ olaydım!" Peyğəmbər ﷺ soruşdu: "Məgər onlar məni qovacaqlar?" Varaqa dedi: "Bəli! Sənin gətirdiyinin bənzərini gətirən (Allahın dinini təbliğ edən) elə bir kişi olmayıb ki, onunla düşmənçilik etməsinlər...".[7]

---

[1] İzxir – ətirli qamış.
[2] Cəlil – nazik gövdəli ev bitkisi.
[3] Məcənnə – Məkkədən bir neçə mil aralıda yerləşən ərazi.
[4] Şama və Təfil – Məkkə yaxınlığında iki dağ.
[5] Lənət – rəhmətdən uzaqlaşdırmaq və qovulmaq deməkdir.
[6] əl-Buxari, 1756, 1889.
[7] əl-Buxari, 3.

Həmçinin İmam Əhməd “Müsnəd” əsərində, İbn Məcə, İbn Hibban, əl-Hakim “Mustədrak” əsərində rəvayət edirlər ki, Abdullah ibn Əli ibn Həmra رضي الله عنه deyir ki, Allah Elçisinin ﷺ Məkkədə miniyin üzərində belə dediyini eşitmişdir: “Allaha and olsun ki, sən mənə Allahın ən xeyirli yerisən! Mənə ən sevimli yersən! Əgər mən burdan qovulmasaydım, heç vaxt buradan çıxmazdım”.[8] İbn Məcədə رحمه الله isə buyurur: “Sən ey Məkkə! Sən Allaha və mənə ən sevimli yersən!”

Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ xəstə adama (belə dua) oxuyurdu: “Allahın adı ilə! (Bu) bizim yerin torpağıdır, bəzilərimizin ağız suyu ilə qarışmışdır və xəstəmiz Rəbbimizin izni ilə sağalacaqdır[9]”.[10]

Uca Allah buyurur: **“Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun rəsuluna kömək edirlər. Doğru olanlar da məhz onlardır”** (əl-Həşr, 8).

Ənsarların əzəmətli dərəcələrinin olmasına baxmayaraq, Uca Allah mühacirləri önə çəkmiş və onları fəzilət sahibi etmişdir. Çünki onlar üçün baş verən şey ənsarlara üz verməmişdir. Bu da sevdiklərini, yaxınlarını, dostlarını Allah yolunda Muhəmməd peyğəmbərə ﷺ kömək etmək üçün vətənlərini tərk etmək, diyarlarından çıxmaq idi. Şeyxul-İslam İbn Teymiyyə رحمه الله bunu bəyan edərək mühacirlərin ənsarlardan daha üstün olmalarını qeyd edərək demişdir: “Bu mühacirlər Allah Elçisinə ﷺ kömək ilə hicrət etməyi cəm etmişdirlər”.[11]

---

[8] ət-Tirmizi, 3925; İbn Məcə, 3108. əl-Albani “Mişkətul-Məsabih” (2725) səhih olduğunu bildirmişdir.

[9] Transkripsiyası: Bismilləh! Turbətu ərdinə: bi ri:qati bə'dinə, yuşfə səqi:munə: bi izni Rabbinə

[10] əl-Buxari, 5304, 5745. İmam ən-Nəvəvi رحمه الله bu hədisi şərh edərkən demişdir: “Allah Elçisi ﷺ ağznın suyunu şəhadət barmağına vurur, sonra torpağa batırıb ondan bir şey götürür, sonra isə kəsilən, xəstə olan, ağrıyan yerə qoyub bu sözü deyərdi. Bəzi alimlər bunu Allah Elçisinə ﷺ xas olduğunu demişlər. Lakin səhih olan bunun ümumi olmasıdır. Şəfa verən Uca Allahdır və istədiyi şeyi sağalmaq üçün səbəb edir”.

[11] Məcmuul-Fətava, 3/152.

Uca Allah vətəndən çıxarılmağı Allah və Onun Elçisinə ﷺ qarşı müharibə edənlərə, Ona qarşı düşmənçilik edənlərə, yer üzərində küfr və qətl ilə, insanların mallarını əllərindən almaqla, yolda insanları qorxuzmaqla fəsad edənlərə qarşı cəza növlərindən etmişdir. Vətəndən qovulmaq subay zinakara tətbiq olunan hədd cəzası kimidir.

Uca Allah buyurur: **"Allaha və Onun Elçisinə qarşı savaşanların və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası ancaq öldürülmək və ya çarmıxa çəkilmək, yaxud əllərinin və ayaqlarının çarpazvari kəsilməsi, ya da yaşadıqları yerdən sürgün edilmələridir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir".** (əl-Maidə, 33).

Uca Allah Bəni Nadir qəbiləsinin[12] öz torpaqlarından çıxarılmasını bəyan etmişdir. Bu da əzab növlərindən bir növdür. Allah bunu dəyişiklik olmayan qədərdə hökm etmişdir. Əgər bu sürgün olmasaydı, onlara dünyada daha böyük əzab və başqa bir cəza olardı. Onlar üçün Axirətdəki əzab daha şiddətlidir.

Uca Allah buyurur: **"Əgər Allah onlara sürgün hökmünü yazmamış olsaydı, onlara dünyada başqa əzab verərdi. Axirətdə isə onlar üçün od əzabı hazırlanmışdır"** (əl-Həşr, 3).

Həmçinin Uca Allah İbrahim عليه السلام haqqında belə buyurmuşdur: **"İbrahim onları və onların Allahdan başqa yalvardıqlarını tərk etdiyi zaman Biz ona İshaqı və Yaqubu bəxş etdik. Biz onların hər ikisini peyğəmbər etdik"** (Məryəm, 49).

Şeyx Abdur-Rahmən əs-Səədi رحمه الله demişdir: "İnsanın vətənini, sevdiklərini, əhli-əyalını, tayfasını tərk etməsi müəyyən bilinən səbəblərə görə nəfsə ağır gəlir. Bu səbəblərdən biri də insanın əzizlərini və yanında olduqlarını tərk etməsidir. Kim Allah üçün bir şeyi tərk edərsə, Allah onun üçün bundan daha xeyirlisini verər. İbrahim peyğəmbər عليه السلام qövmünü tərk etdi və Uca Allah onun haqda buyurdu: **"İbrahim onları və onların Allahdan başqa yalvardıqlarını tərk etdiyi zaman Biz ona İshaqı və Yaqubu bəxş etdik. Biz onların hər**

[12] Mədinədə olan yəhudi qəbiləsi olub.

**ikisini peyğəmbər etdik"** (Məryəm, 49). Uca Allah vəhy ilə, risaləti və aləmlərin üzərinə seçdiyi elçilərinə nə vermişdisə, onlar üçün də verdi".[13] Uca Allah İbrahimə ﷺ hər şeyi əhatə edən xeyri - şirk və küfr içində olan qövmünü tərk etməsinə görə vermişdi". İki səhih əsərdə (əl-Buxari və Muslimin "Səhih" əsərlərində) Malik ibn Huveyrisin ﵁ Allah Elçisinin ﷺ yanına gəlməsi qeyd edilir. Rəvayət edilir ki, Malik ibn Huveyris ﵁ demişdir: "Mən qəbiləmizdən olan bir neçə adamla birlikdə Peyğəmbərin ﷺ yanına gəldim və biz iyirmi gün onun yanında qaldıq. O (bizimlə) çox mehriban və mülayim rəftar edirdi. Nəhayət, bizim ailələrimiz üçün darıxdığımızı görüb dedi: "Qayıdın, onların yanında olun, (bu dini) onlara öyrədin, (onlara) namaz qıldırın, namaz vaxtı yetişdiyi zaman, qoy biriniz azan verib sizi namaza çağırsın və sizin ən yaşlı olanınız sizə namaz qıldırsın". (əl-Buxari, 592, 628). Allah Elçisi ﷺ onların ailələri və vətənləri üçün darıxdığını nəzərə almışdı. Necə ki Ənəs ibn Məlik ﵁ demişdir: "(Hədisin bu yerinin xatırlayıb) "bizim ailələrimiz üçün darıxdığımızı görüb"– bundan sonra Allah Elçisi ﷺ onlara ailələrinin yanına qayıtmağa icazə verdi".

Uca Allah böyük günahları edənə vətəndən uzaq düşməyi cəza və qorxutmaq növlərindən etmişdir. Səhih Muslimdə ﵀ rəvayət olunur ki, Ubadə ibn Samit ﵁ rəvayət edir ki, Allah Elçisi ﷺ belə buyurdu: "Məndən öyrənin! Artıq Uca Allah onlar (qadınlar) üçün çıxış yolu açmışdır. Evli ilə evli, bakirə ilə bakirə. Evliyə yüz qamçı vurular, sonra isə daş-qalaq olunar. Bakirəyə isə yüz qamçı vurular və bir il uzaqlaşdırılar".[14] Şeyxul-İslam İbn Teymiyyə ﵀ buyurur: "Həqiqətən onun vətənindən qovulması onun himməsini və bədənini zəiflədir. Beləliklə o, cəza çəkdiyini başa düşür". Təqvanın səhih mənalarına daxil olan da - müsəlmanın vətəninə (zərər gəlməsinə) görə Rəbbindən qorxması, vətəninə xəyanət etməməsi, düşmənləri onun üzərinə hökmranlıq etməsinə qarşı çıxması, vətəni hərc-mərcliyə aparmaması, həmvətənlərinin arasında düşmənçilik və fitnəni yaymamasıdır. Necə ki Şeyx Muhəmməd Şakir ﵀ deyir: "Nə badə sən təqvanın yalnız

[13] Teysirul-Kərimur-Rahmən, 3/1002.
[14] Muslim, 1690, 3200, 4511.

namaz, oruc və onlara bənzər ibadətlərdən olmasını zənn edəsən! Həqiqətən təqva (Allahdan qorxmaq) çox şeyə daxil olur. Allahdan etdiyin ibadətlərə görə qorx və bunda səhlənkar olma! Allahdan qardaşlarına görə qorx və onların heç birinə əziyyət vermə! Allahdan vətəninə görə qorx və ona xəyanət edərək düşmənləri onun üzərinə hökmran etmə! Allahdan öz nəfsinə görə qorx, səhhətini və pis əxlaq sahibi olaraq nəfsini zay etmə!"[15] Mən həqiqətən təəccüb edirəm ki, insan öz vətəninə necə xəyanət edir?! İnsan zənn etsə ki, onun vətəni onu sıxır, deməli onun əxlaqı naqisdir. Haqq qədimdə şair dediyi kimidir:

*Allaha and olsun ki, ölkələr daralmaz,*
*Lakin daralan kişilərin əxlaqıdır.*

Vətənindən uzaq düşənin halı belədir. Onun qanında darıxmaq istəyi cərəyan edir, boğulan insanın havaya çıxması kimi vətəni üçün acır. Qaranlıqda (ana bətnində) olan uşağın işıqlığa çıxması kimi insan da vətəni üçün darıxır. Ona görə mən təəccüb edirəm ki, insan necə xəyanət edə bilər?! Heç insan da öz vətəninə xəyanət edər?! Günəş mənim vətənimdə ən gözəldir. Qaranlıq da mənim vətənimdə ən gözəldir, çünki vətənim (gecə) orda yatır. Sənin təmiz və ətirli gecələrin var. Vətən nə qədər ki, İslam ölkəsidirsə, onun İslam ölkəsi olaraq qalması üçün çalışmağın vacibdir. Onun əmin-amanlığı üçün çalışmağın vacibdir. Orda özbaşınalıq eləmək, illər boyu qazanılanın itirilməsi və vətənə zərər verilməsi haramdır.

Şeyx İbn əl-Useymin ﷺ küfr diyarı ilə İslam diyarını bəyan edərək demişdir: "Şirk ölkəsində küfrün şüarları qaldırılan və İslam şüarları olan – azan, namaz, bayram və cümə namazı kimi ümumi şəkildə edilmir. Bunlar xüsusi şəkildə olsa da və bəzi müsəlmanlar bunu etsə də ora müsəlman diyarı adlanmır. Çünki bu şüarları az miqdarda müsəlman edir. Amma İslam diyarlarında İslam şüarları ümumi və

[15] Vasayal-Əbəi lil-Əbnəi, səh. 20

açıq şəkildə edilir. Allaha həmd olsun, bizim diyarımız İslam diyarıdır". Şeyx əl-Albani ﷺ buyurur: "Bu məsələ Şeyxul-İslam İbn Teymiyyənin ﷺ məsələni bəzi fətvalarda izah etdiyi kimidir. Həqiqətən vətən hüdudlardan ibarət deyil. Əslində onun sakinləri var. Əgər sakinlərin çoxu müsəlmandırsa, nizam İslamdırsa, İslam dini ilə tam şəkildə hökm edilməsə də belə ora İslam diyarı sayılır". Şeyx əl-Albaninin ﷺ işarə etdiyi İbn Teymiyyənin ﷺ bəzi fətvalarında olan bu sözdür: "Bir diyarın küfr və ya İslam diyarı olması, fisq diyarı olması, yerə xas olan bir şey deyil. Bu sakinlərə xas olan bir şeydir". Başqa bir yerdə demişdir: "Yaşayış yerlərinin və ölkələrin hökmləri əhalisinin hökmünə görə dəyişir. Ola bilər ki, bir yerin əhalisi kafirlər olduğuna görə küfr diyarı olsun. Sonra əhli İslama gələr və İslam diyarı olar. Necə ki Məkkə - Allah onu şərəfləndirsin, əvvəllər küfr və hərb diyarı idi".

Şeyx yalnız sakinləri nəzərdə tutmur. Burada əksər sakinlər nəzərdə tutulur. Şeyx əl-Albani ﷺ buyurur: "İslam diyarı əvvəlki kimi deyil, lakin hər bir halda küfr diyarı da deyil, İslam diyarıdır. Bu məslədə artıq şübhələr çoxalmış və xətalı, rədd olunmuş rəylər artmışdır. Orada xətalar və xətaların üzərinə çoxlu şərlər qurulmuşdur. Bunların səbəbləri; Allahın endirdiyi ilə hökm etməyənin təkfiri, onlardan bəzilərinin alimlərin bu barədə bəzi sözlərini düzgün başa düşməmələri və onların sözlərini öz yerinə qoymamalıdır. Hər bir halda ölkəmiz nə qədər ki, İslam ölkəsidir – onun istiqrarını, əmin-amanlığının kamilliyi üçün onu qoruyaq. Onun qorunması bizə vacibdir".

Şeyx İbn əl-Useymin ﷺ buyurur: "Əgər vətən İslam dövlətidirsə, oranı sevirsən, çünki o, İslam dövlətidir. Fərqi yoxdur, o sənin yaşadığın yerdir və ya başqa müsəlman ölkəsidir. Oranı sevmək də vacibdir".[16]

Saleh əl-Fovzan ﷺ buyurur: "İslam vətənini sevməyin din ilə ziddiyyəti yoxdur. Bu fitri məsələdir ki, burda qınama yoxdur. Əksinə

[16] Riyadus-Salihin, 1/36.

düşmənlər ora hücum edərsə, onu müdafiə etmək hər bir bacaran üçün fərzdir. Vətəni sevmək şəri cəhətdən müqəddəs bir şeydir və onu sevmək Məkkə və Mədinəni sevmək kimi ibadətdir. Allah onların ikisini də şərəfləndirsin. Əgər vətəni sevmək - hicrət və Allah yolunda vuruşmaq kimi dinin işləri ilə zidd olarsa, o zaman vətən sevgisini cihadın və hicrətin önünə çəkmək şiddətli şəkildə haram olur. Necə ki Uca Allah buyurur: **“Yalnız zülmə qarşı çarə qılmağa qadir olmayan və yol tapa bilməyən zəif kişilər, qadınlar və uşaqlar istisnadır. Ola bilsin ki, Allah onları əfv etsin. Həqiqətən, Allah əfv edəndir, bağışlayandır”** (ən-Nisa, 98-99); **“De: “Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz”.** (ət-Tövbə, 24). Beləliklə, Allahın Peyğəmbəri ﷺ Məkkədən mühacir kimi Mədinəyə çıxdı. Həmçinin İbrahim ﷵ öz vətəni olan İraq torpaqlarından Şam və Məkkə torpaqlarına doğru çıxdı. **“...İbrahim dedi: “Mən Rəbbimin yanına** (əmr etdiyi Şam diyarına) **hicrət edirəm...”.** (əl-Ənkəbut, 26). İslam vətənini sevmək imandandır”. Şeyx İbn əl-Useymin ؒ buyurur: “Hərdən insanların dilində sənədi olmayan və səhihliyi barədə heç nə olmayan hədis yayılır: “Vətəni sevmək imandandır”. Bu hədis səhih deyil. Əksinə İslam vətənini sevmək imandandır. Amma vətənə gəlincə, ola bilər ki insan küfr diyarı olan vətənindən İslam diyarına hicrət etsin. Küfr diyarı olan vətəninə sevgi imandan deyil. Əksinə küfr olan diyarlar üzərinə qəzəb olanlardır. Amma İslam vətəni sənin vətənin olmasa da ona sevgi imandandır”.[17] Müsəlmanın öz ölkəsini – vətənini və onun əhalisini düşmənlərin hücumundan və onların hiylələrindən malını və canını fəda edərək qoruması vacibdir. Dininin şüarlarının və Rəbbinə ibadətinin orada olması, əllərində olan mülklərin dəyişməməsi, məhrəmlərini qorumaq, onların yaşayışlarını

[17] Şərhu Riyadis-Salihin, 5/330.

düzəltmək üçün vuruşması vacibdir. Övladlarının və zürriyyətinin İslamda olması üçün vuruşması vacibdir. Bütün bunlar - vətən ilə insanlar arasına girərək fitnə salmaq düşmənlərin hiylələridir. Düşmənlərin məqsədi məmləkəti ələ keçirərək mülklərə sahib olmaq, məhrəmlərə təcavüz etmək, dili və tarixi məhv etməkdir. Bu vətən və əhli üçün edilən hiylələrdir. Buna görə də vətən yolunda Allah üçün vuruşmaq vacibdir. İbn Bəzz ﷺ buyurur: “Yerlipərəstliyi və pislənilən niyyətləri tərk etmək vacibdir. Hər hansı yerə görə özünü üstün saymamaq lazımdır. İnsanı yer müqəddəsləşdirmir. Onu əməli müqəddəsləşdirir”.[18]

Burda təfislatlı olan tərəzi təqvadır.

Uca Allah buyurur: “**Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır”** (əl-Hucurat, 13).

Təqva elə bir şeydir ki, onu Allahdan başqa heç kim bilmir. Uca Allah buyurur: “...**Özünüzü təmizə çıxartmayın! Çünki O, kimin Allahdan qorxduğunu yaxşı bilir”** (ən-Nəcm, 32).

Özlərini sələfə nisbət edənlərə onlara etimad edən cavanlara görə Allahdan qorxmaları vacibdir. Heç bir siaysı və qarışıq fikrə qarışmayan vəhyə tabe olmaları vacibdir. İslama və müsəlmanlara qarışıq fikirlərin çoxluğu və azlığı, varlığı və yoxluğu heç bir zərər verməyib, çünki bu, Allahın seçdiyi möminlərin yolundan uzaqdır və xətalı yoldur. Fitnələr bəsirəti kor edir və gözlərin qabağına hicab çəkir. Fitnə gəldikdə, alimlər onu bilər, getdikdə isə cahillər onu bilər. İxtilaf etmək məğlub olmağın əsas başlanğıc səbəblərindəndir. Bunun başlanğıcı isə Allah və Onun Elçisinə ﷺ qarşı itaətdə olan naqislikdir. Buna görə də Uca Allah bu iki şeyi bir yerdə zikr edib. Uca Allah buyurur: **“Allaha və Onun Rəsuluna itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir”** (əl-Ənfal, 46). Kim Allah və Onun Elçisinə ﷺ

[18] Yəhyə ibn Səid rəvayət edir ki, Əbud-Dərdə Salman Farisiyə məktub yazır: “Sən müqəddəs torpaqlara gəl!” Salman Farisi də ona məktub yazır ki: “İnsanı yer deyil, onu əməli müqəddəsləşdirir”. (Malik, Vasaya kitabı).

tabe olarsa, ona kömək olunar. Kim onlara müxalif olarsa, zəlil olar və alçalar. Uca Allah buyurur: **"Heç şübhəsiz ki, Allaha və Onun rəsuluna qarşı çıxanlar ən zəlil kimsələr arasında olacaqlar"** (əl-Mucadilə, 20).

Allah Elçisi ﷺ buyurur: "Zillət və alçaqlıq mənim əmrimə müxalif olanadır".[19]

İbn Teymiyyə رحمه الله buyurur: "Əhli Sünnə camaata bağlı olduğu kimi, bidət də bölünməyə bağlıdır. Deyildiyi kimi - Əhli Sünnə val-Cəməa, Əhli Bidə val-Firqa".

İxtilaf dənizindən həlak olmaqdan qurtarmaq sünnədən yapışmaqdır. Sünnədən tutunmaq Nuhun gəmisidir. Necə ki, kim həmin gəmiyə mindi nicat tapdı, kim ona minmədisə, artıq həlak oldu. Allah Elçisi ﷺ buyurur: "Məndən sonra sizdən kim yaşayıb qalarsa, çoxlu ixtilaflar görər. Mənim və hidayət rəhbərləri olan raşidi xəlifələrin sünnəsindən möhkəm yapışın. Onlara arxa dişlərinizlə möhkəm tutunun. Dində bidətdən çəkinin!".[20] Hamımız bilməliyik ki, həddi aşmağın aqibəti çox pis və cəzası ən tez gələn günahdır. Həddi aşan öz həddi aşması ilə özü-özünü vurur. Əgər ona qarşı həddi aşılan kəs həddi aşanın həddi aşmasını görərsə, həddi aşanın özünü vurmasına görə sevinər. Lakin bəsirətinin zəif olmasına görə ancaq azğınlığı görür, həmin adamın özünü vurmasını isə görmür. Uca Allah buyurur: **"Bax belə! Hər kim özünə verilən cəza kimi cəza versə, sonra yenə də haqsızlığa məruz qalsa, bilsin ki, Allah ona mütləq kömək edəcəkdir. Həqiqətən, Allah əfv edəndir, Bağışlayandır!"** (əl-Həcc, 60). Artıq Uca Allah Onun haqqına vəfa edənə zamin durub. Bəs heç bir şeydə Allahın haqqına vəfa etməyən necə? Əksinə, Allaha qarşı həddini aşır. Həmçinin günahlardan ən tez cəzası gələn həddi aşmaq və qohumluq əlaqələrini kəsməkdir. Əbu Bəkrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Günah sahibinə verilən cəzanın Axirətə saxlanılması ilə yanaşı bu dünyada da tezləşdirilməsi üçün, azğınlıq etmək və qohumluq əlaqələrini kəsmək kimi günahdan daha uyğun

---

[19] əl-Buxari, Cihad fəsli, 87-88.

[20] Əhməd, 18144; Əbu Davud, 4608; İbn Məcə, 43. Albani səhih olduğunu bildirmişdir.

bir günah yoxdur".[21] Bir dağ başqa bir dağa qarşı həddini aşarsa, haqsızlıq edərsə, həddi aşan dağın parça-parça olması Uca Allahın sünnəsidir. Azğınlıq edənin həddini aşması özünü oxlarla vurmasıdır. Gəmidə olanları batırmaq üçün gəmidə deşik açan insan necə də böyük günah edir! Hərc-mərclik yaradan insan necə də dəhşətli bir günah edir, sanki fitnələri qəbirdən çıxarır! On dörd əsrdir ki, Allahın ona nəsib elədiyi İslam torpaqlarını zay etmək istəyən necə də böyük günah qazanır!

Əbu Musa ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi! Allah yolunda vuruşmaq nə deməkdir? Axı bizdən kimisi qəzəbinə görə, kimisi də namusuna görə vuruşur". Peyğəmbər ﷺ buyurdu: "Hər kim Allahın Kəlməsi hər şeydən uca olsun deyə vuruşarsa, Uca Allahın yolunda (vuruşmuş) olar".[22] Təəssübkeşlik üçün döyüşən şəhid sayılmır. Vətənpərvərlik kişinin öz vətəninə nisbət olunmasından doğur. Əgər müsəlman ölkəsinə nisbət edir və vətəninini sevirsə, Allahın Kəlməsinin və tövhidin üstün olması üçün döyüşürsə, bu müsəlmanın öz vətəni üzərində olan haqqını yerinə yetirməkdir. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi ﷺ Məkkədən çıxarkən belə demişdir: "Sən necə də gözəl yersən! Mənə sevimlisən. Əgər qövmüm məni çıxarmasaydı, səndən başqa yerdə qalmazdım".[23] Allah Elçisi ﷺ Mədinəyə gəldikdə Mədinəni ona sevdirməsi üçün dua edərək demişdir: "Allahım, Məkkəni bizə sevdir-diyin kimi, yaxud bundan artıq bir sevgiylə Mədinəni də bizə sevdir...".[24] Vətənin əmin-amanlığı Uca Allahın insana verdiyi ən əzəmətli nemətdir.

Uca Allah buyurur: "**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi**

[21] əl-Buxari "Ədəbul-Mufrad" 29; Əbu Davud, 4902; ət-Tirmizi, 2511; İbn Macə, 4215. əl-Albani "Silsilətu-Əhədisis-Sahih"da (918) səhih olduğunu bildirmişdir.

[22] əl-Buxari, 123.

[23] ət-Tirmizi, 3926; İbn Məcə, 3709. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (5536) səhih olduğunu bildirmişdir.

[24] əl-Buxari, 1756, 1889.

**onları da yer üzünün varisləri edəcək, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra əminliklə əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir"** (ən-Nur, 55).

Allah əmin-amanlıqla ibadəti bir yerdə gətirdi.

Uca Allah buyurur: **"Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır**" (İbrahim, 35). İbrahim peyğəmbər ﷺ bu duada əmin-amanlıq nemətini istədi, bu isə əmin-amanlığın ən əzəmətli nemətlərdən olmasına dəlildir. Dinin və dünyanın heç bir xeyri əmin-amanlıq olmadan olmaz. Alimlərimizdən soruşmuşlar: "Əmin-amanlıq üstündür, yoxsa sağlamlıq?" Onlar da cavabında demişlər: "Əmin-amanlıq daha üstündür". Buna dəlil gətirirlər ki, əgər bir qoyunun ayağı sınıbsa, müəyyən vaxtdan sonra onun ayağı düzələcək və sürüyə qayıdacaq. Amma o, bir yerdə bağlansa, otları yeyə bilməyəcək və nəticədə oləcək. Həqiqətən qorxunun gətirdiyi zərər, bədəndə olan zərərdən daha şiddətli və zərərlidir. Ona görə Uca Allah İbrahimin ﷺ duasına cavab vermiş, Beytul-Haramı və Məkkəni əmin-amanlıq diyarı etmişdir. Oraya dadlı ruzilər əta etmişdir. Həmçinin Uca Allah ruzi ilə əmin-amanlığı bir tutmuşdur.

Uca Allah buyurur: **"Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Buranı təhlükəsiz bir şəhər et, onun əhalisinə, – onlardan Allaha və Axirət gününə iman gətirənlərə – hər növ məhsullardan ruzi ver!..."** (əl-Bəqərə, 126). Uca Allah Məkkə əhlinə əmin-amanlıq vermiş və belə buyurmuşdur: **"Məgər onlar, ətraflarındakı insanlar yaxalandıqları halda, Məkkəni onlar üçün müqəddəs, təhlükəsiz bir yer etdiyimizi görmürlərmi? Onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?"** (əl-Ənkəbut, 67). Müşriklər bu nemətin əzəmətli olmasını dərk etmirdilər. Onlar Məkkəni əmin-aman bir yer olduğunu görmürdülər. Halbuki ətrafda yaşayan ərəblər biri-birilərini məhv edirdilər. Ətrafda olanların çoxluluğuna baxmayaraq Məkkə əhli az

olsa da onlara hücum olunmur və onlarla heç kim düşmənçilik etmirdi. Uca Allah bu əzəmətli neməti onlara xatırlatmışdır.

Uca Allahın bu cür sual verməsi: “**Onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?”** (əl-Ənkəbut, 67), yəni Allah onların halına təəccüblənir və onları qınayır. Allah onlara nemət verir, onlar isə bunu inadkarlıq və küfr ilə qarşılayırlar. Uca Allah Məkkə əhlini əmin-aman etmiş və buna görə də oranı tərifləmişdir: **“Bir zaman Biz müqəddəs Evi insanlar üçün ziyarətgah və əmin-aman bir yer etdik...”** (əl-Bəqərə, 125).

Uca Allah oranı əmin-aman yer adlandırır: **“qoy onlar bu Evin Rəbbinə ibadət etsinlər. Allah onlara aclıqdan sonra yemək verdi və qorxudan sonra əmin-amanlıq bəxş etdi”** (əl-Qureyş, 3-4); Uca Allah Öz minnətini Səba qövmünə xatırladaraq demişdir: **“Səba qəbiləsi ilə bərəkət verdiyimiz məmləkətlər arasında aydın görünən bir-birinə yaxın şəhərlər salmış, orada gediş-gəliş yaratmışdıq. “Oralarda gecələr və gündüzlər arxayın gəzib dolaşın!”– demişdik”** (Səba, 18); **“Allah təhlükəsizlik və əmin-amanlıq içində olan bir diyarı** (Məkkəni) **məsəl çəkir. Ona öz ruzisi hər yerdən bol-bol gəlirdi. Lakin o diyarın əhalisi Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu libasına bürüdü”** (ən-Nəhl, 112).

Sələmə ibn Mihsan əl-Ənsari ﵁ rəvayət edir ki, Allah Elçisi ﷺ belə buyurdu: “Kim qəlbi rahat, bədəni sağlam, gündəlik yeyəcəyi yanında olduğu halda səhərə çıxarsa, sanki bütün dünya ona verilmiş kimidir”.[25]

Əmin-amanlıq neməti Allahın insan verdiyi ən uca nemətlərdən biridir. Bu da şükür tələb edir. Nemət ovdur, şükür isə onu saxlamaqdır. Nemətin şükrü onu daxildə etiraf etmək, nemət verənə dil ilə səna və tərif etmək və nemət verənin yolunda xərcləməkdir. Bu əzəmətli nemətə küfr isə vətənin əmin-amanlığı ilə oynamaq, onun gələcəyini korlayıb keçmişini zay etmək, vətən övladları arasında

---

[25] ət-Tirmizi, 2346, 2519. əl-Albani həsən olduğunu bildirmişdir.

düşmənçilik odunu qalamaq, vətənin dayaqlarını dağıdmaq, orda olan kasıb və savadsız camaatdan istifadə etmək, necə ki azğınlar onlardan istifadə edərək zəiflədən bir döyüşə apardılar. Bu hallar başqa yerlərdə də baş vermişdir. Məsələn, Əlcəzairdə, İraqda, Qəzzada və s. Xoşbəxt insan başqasından öyüd götürəndir.

Ey əzəmətli müsəlman toplumu! Danışanların sözü sizi aldatmasın. Dininizdən möhkəm yapışın! Qeybi bilən Rəbbinizə tövbə edin! Ey əzəmətli müsəlman toplumu! Həqiqətən İslam dini sizin boğazınızda bir əmanətdir. Əlinizdə olanı qoruyun ki, itənləri qazanasız. Bacara bildiyiniz şeydə paxıl olma! Allah səni müvəffəq edər və qoruyar, çünki O, Bağışlayan və Sevəndir!

Sonda aləmlərin Rəbbi olan Allaha həmd olsun!